

**ELMAR QASIMOV,**
Azərbaycan Respublikası Təhsil
Nazirinin müavini

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN GƏNCLİYİ

*«Gənclərimizin qarşısında xalqımıza, dövlətimizə, ölkəmizə sədaqətlə xidmət etmək, həyatda fəal olmaq və Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq vəzifəsi durur...»*

Möhtərəm Prezidentimiz Heydər Əliyevin bu sözləri ölkəmizdə gəncliyin qarşısına qoyulan ən şərəfli vəzifələrdəndir. Mövzuya məhz niyə bu fikirlə başlanıldı? Gənclik elə bir qüvvədir ki, məhz onun qaynar enerjisi, axtarışlara baş vurmaq həvəsi, bu və ya digər sahəyə düzgün istiqamətləndirilməsi ölkənin gələcəyinin inkişafında, millətin tərəqqi etməsində, onun qorunub saxlanılmasında başlıca amillərdəndir. Onda görək taleyinə müstəqil Azərbaycanın yarandığı günlərdən gənclik dövrü düşmüş ölkəmizin vətəndaşları üçün qısa zaman kəsiyində nələr edildi? Onların istedadlarının üzə çıxarılması, imkanlarının genişləndirilməsi, gələcək həyata hazırlanması üçün hansı işlər görüldü? Mövzu ilə əlaqədar qarşıya çıxan bu və ya digər suallara bir məqalə, bir çıxış ətrafında cavab vermək şübhəsiz, imkansız olsa da, onların ən əsaslarını diqqətə çatdırmaq güman edirəm ki, yerinə düşər.

1988-1999-cu illərdə baş vermiş məlum hadisələrdən sonra 1993-cü ilin iyununda Azərbaycan gənclərinin də fəal surətdə cəlb olunduğu qardaş qarşıdurması şəraitində müdrik dövlət xadimi və uzaqgörən siyasətçi Heydər Əliyevin Azərbaycanda hakimiyyətə yenidən qayıdışı respublikamızın başının üstünü almış dəhşətli fəlakəti aradan qaldırmağa, gənclərin qarşısında duran problemlərə və onların həlli yollarına münasibəti kökündən dəyişməyə imkan yaratdı. Gənc nəslə diqqət və qayğı dövlətin ən mühüm fəaliyyət istiqamətlərindən birinə çevrildi. Azərbaycan gənclərinin yenidən təşkilatlanma zərurəti tam ciddiliyi ilə irəli sürüldü.

1994-cü il iyulun 26-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Bu dövrdən dövlət gənclər siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi istiqamətində mühüm işlər görülməyə başlandı.

Gənclər və idman siyasətini həyata keçirən mərkəzi dövlət idarəetmə orqanının yaradılması, respublikamızın sosial-iqtisadi və mədəni inkişafına uyğun gələn gənc nəsli tərbiyə etmək, gənclərin qüvvə və bacarıqlarını, yaradıcılıq po-



tensialını, milli dövlət quruculuğunun möhkəmləndirilməsi, ölkədə həyata keçirilən islahat və proqramların gerçəkləşməsi işinə səfərbər etmək və bütün digər mühüm istiqamətlərdə gənclərlə iş aparmaq kimi bir vəzifəni həyata keçirmək məhz bu dövlət orqanının üzərinə düşdü.

Bəli, məhz görkəmli dövlət xadimi, dünyamiqyaslı siyasətçi, böyük insan Heydər Əliyevin titanik və təkrarsız fəaliyyəti xalqımızın, Azərbaycanın işıqlı sabahına ümidlərini artırdı. Heç bir şübhə yoxdur ki, artıq biz əmin-amanlıq içində yaşayaraq, inkişaf yolu ilə inamla irəliləyirik. Bu yolun əsas aparıcı qüvvələrindən biri isə möhtərəm Heydər Əliyev cənablarının daimi qayğı və diqqəti ilə əhatə olunmuş Azərbaycan gəncliyidir.

Gənclər cəmiyyətin ayrılmaz bir hissəsi, ən perspektiv sosial təbəqə olduğu üçün Möhtərəm Prezidentimizin milli dövlətçiliyimizin təhlükə altında qaldığı bir vaxtlarda, hələ prezident səlahiyyətlərini icra etdiyi bir zamanda Ali Sovetdə respublikamızın fəal gəncləri ilə görüşməsi, onların fikir və mülahizələrini dinləməsi, onlara tövsiyələr verməsi, bunların davamı olaraq qeyd etdiyimiz kimi Nazirliyin yaradılması və haqqında söz açdığımız digər məsələlər bu sahədə atılan addımların başlanğıcı oldu.

Bu gün respublikamızda 40-dək uşaq, 80-dək gənclər təşkilatı fəaliyyət göstərir ki, onların əksəriyyəti konfederativ qurum olan Azərbaycan Respublikası Gənclər Təşkilatının Milli Şurasında birləşib. Sevindirici haldır ki, bu qurum Avropa qitəsində ən nüfuzlu beynəlxalq, qeyri – hökumət təşkilatı olan Avropa Gənclər Forumunun tamhüquqlu üzvü seçilmişdir.

1996-cı il fevralın 2-də Azərbaycan Gənclərinin I forumu keçirildi. Forumda ölkə başçısı cənab Heydər Əliyevin dərin məzmunlu və proqram xarakterli nitqində dediyi: «Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kim qəbul etməlidir və öz həyatını qurarkən, özünü həyat fəaliyyətinə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən, özü haqqında da düşünməlidir, ailəsi haqqında da düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir...» sözləri müstəqil respublikamızda gənclər siyasətinin həyata keçirilməsində, dövlət orqanlarının vəzifələrinin müəyyənləşdirilməsində əsas rol oynadı. Forumdan sonra gənclərin problemlərinin həlli, mənəvi-əxlaqi və vətənpərvərlik tərbiyəsi, beynəlxalq gənclər təşkilatları ilə əlaqələrin qurulması, çoxsaylı gənclər təşkilatlarının fəaliyyətlərinin əlaqələndirilməsi və digər sahələrdə də işlər geniş vüsət aldı.

Yaxın keçmişimizə bir daha nəzər salaraq, Azərbaycan gənclərinin birinci forumunda Möhtərəm Prezidentimizin dərin məzmunlu, dolğun çıxışından bəzi məqamları bir daha xatırlatmaq istərdim: «Azərbaycanın müstəqilliyini inkişaf etdirmək üçün, qorumaq üçün, möhkəmləndirmək üçün və onu əbədi etmək üçün vaxt lazımdır. Ancaq, eyni zamanda, hər gün çalışmaq lazımdır, hər gün fəaliyyət göstərmək lazımdır. Buna görə də sizin əsas vəzifəniz bundan ibarət olmalıdır.

Bunun üçün Azərbaycanın Əsas Qanunu var, Konstitusiyası var. İndi bütün gənclərin fəaliyyəti artıq keçmiş ideoloji tələblərdən, ideoloji prinsiplərdən, ideoloji buxovlardan azaddır. Hamımız üçün bir məqsəd var, müstəqil Azərbaycan Respublikası və onun Əsas Qanunu-Konstitusiyası var. Hesab edirəm ki, keçən il bizim ən böyük nailiyyətimiz müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasını qəbul etmək oldu. Konstitusiya referendum vasitəsilə, ümumxalq səsverməsi vasitəsilə qəbul olundu. Hesab edirəm ki, bu uzun ömürlü Konstitusiya olacaqdır və Azərbaycanın dövlət müstəqilliyini təmin etmək üçün, Azərbaycan xalqının gələcək rifahını təmin etmək üçün çox gözəl yollar açır və açacaqdır».

Möhtərəm Prezidentimizin bu dəyərli tövsiyələri, gənclərimiz üçün böyük örnək olan nəsihətləri şübhəsiz ki, Azərbaycan gənclərini həyat yollarında mətin, cəsarətli, mərd olmağa çağırır. Bu yolların açarı isə təhsil və elmin qapılarından başlayır. O dövlət güclüdür ki, onun basılmaz ordusu, güclü iqtisadiyyatı, zəngin kadr potensialı, inkişaf etmiş təhsil sistemi var. Heydər Əliyev xalqımıza, millətimizə istər təhsildə, istər elmimizdə, istərsə də digər sahələrdə saysız töhfələr vermiş bir şəxsiyyətdir. Onun sovetlər dövründəki fəaliyyətindən tutmuş, müstəqil Azərbaycan üçün bu sahədə də gördüyü işlər milli tərəqqinin – elmin, mədəniyyətin, təhsilin inkişaf edərək, millətin intellektual potensialının genişlənməsi üçün böyük imkanlar açmış, digər sahələrlə yanaşı, təhsil sistemimizi də beynəlxalq aləmdə tanıtmış, layiqli kadrlar yetişdirməyə müvəffəq olmuşdur. Bu sahədəki fəaliyyəti onun təhsil işçilərinə, həm də milli tərbiyə və təhsil nəzəriyyəçisi kimi tanıtmışdır. Bu işdə də «Heydər Əliyev Dövlət İdarəçilik məktəbi»nin böyük rolu olmuşdur» desək yanılmarıq. Çünki bütün sahələri əhatə edən bu böyük məktəbin yaradıcısı və qurucusu olan Heydər Əliyev təkcə praktik təcrübəsi ilə deyil, həm də öz nəzəri bilikləri ilə təhsil sistemini inkişaf etdirmiş, millətimizin gələcəyi olan kadrların yetişməsi üçün mövcud imkanlardan istifadə edərək lazımi şərait yarada bilmişdir.

Heydər Əliyevin fəaliyyəti ilə bağlı görülmüş işlərə, aparılan tədqiqatlara nəzər salsaq görərik ki, o, elmi uzaqgörənliklə milli tərbiyənin məzmununa gənc nəslin milli vətənpərvərlik anlayışını da daxil etmişdir. Bu, gənclərimiz üçün, gələcək nəsil üçün olduqca böyük və vacib bir məsələdir.

Əgər milli tərbiyənin təməli möhkəm qoyularsa, onda həmin xalqın vətənpərvərlik əzmi güclü olur, həmin millət öz kimliyini dərk edir, öz Vətəninin şərəfini hər yerdə uca tutur. Bu mənada ölkəmizin aparıcı qüvvəsi olan gəncliyin gördüyü işlər olduqca zəruri və vacibdir.

Heydər Əliyevin: «Azərbaycanı sevmək—azərbaycançılıq hissiyatını özünə cəlb etmək deməkdir» - sözləri hər bir insanın həyat və fəaliyyət dairəsinin inkişafı üçün hər şeyin vətən sevgisindən, Vətənə övladlıq borcundan ibarət olduğuna və bu sevginin fövqündə insanın qurub-yaratmaq əzminin, daim artığına parlaq misaldır. Həqiqətən də vətən sevgisi, dövlətçiliyimizin qorunması bizim hər birimizin başlıca vəzifəsi olmalıdır. Əgər millətin inkişafından, tərəqqisindən, bu böyük şəxsiyyətin bu yolda gördüyü işlərdən danışırıqsa, statistik rəqəmləri xatırlatmaq yerinə düşər. Məsələn: 1979-cu ildən orta ümumtəhsil məktəblərinin şəbəkəsi 1965-ci illə müqayisədə dəfədən çox artmış, şagirdlərin ümumi orta təhsili vaxtında başa vurma göstəriciləri 1969-cu ildəki 73,3 %-dən 1979-cu ildə 89,6 %-ə çatdırılmışdır. 1970-1980-ci illərdə ümumtəhsil məktəblərinin tədris-maddi bazası və kadrlarla təminatı möhkəmləndirilmiş, 1978-ci ildən ümumtəhsil məktəbləri şagirdlərə dərsliklərlə pulsuz təminata keçmiş, 1995-1996-cı tədris ilində ilkin olaraq ibtidai sinif şagirdlərinin dərsliklərlə pulsuz təminatı yenidən bərpa edilmişdir.



Onu da qeyd etmək istərdim ki, texniki peşə təhsili üzrə bu sahə sovetlər dövründə nə qədər inkişaf etmişdisə, 1980-ci illərin sonralarından öz tənəzzülünü yaşamız və məhv olmaq həddinə çatmışdı. 1996-cı ildə Azərbaycan hökumətinin «Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi tədbirləri haqqında» qərarından sonra bu sahədəki tənəzzül aradan qaldırıldı. Hazırda respublikada 110 ibtidai peşə təhsili müəssisəsi, peşə litseyləri və peşə məktəbləri fəaliyyət göstərir ki, onlarda 115 peşə üzrə mütəxəssis hazırlanır.

Gənclərimizi müstəqil həyata aparan ali və orta ixtisas məktəblərinə gəlincə, yenədə kiçik bir müqayisə aparmaq istərdim. Əgər 1970-1980-ci illərdə Azərbaycanda ali təhsil müəssisələrinin sayı 1969-cu illə müqayisədə 12-dən 17-yə, təhsil alanların sayı isə 70-mindən 100-minə çatmışdısa, bu illərdə fəaliyyət göstərən 78 orta ixtisas məktəbində hər il 80 minə yaxın tələbə təhsil almış, ali və orta ixtisas məktəblərinə qəbul olan tələbələrin sayı bu illərdə sürətlə artmışdır.

Hazırda respublikamızda 30 dövlət, 15 qeyri-dövlət ali təhsil, 70-ə yaxın orta ixtisas təhsil müəssisəsi fəaliyyət göstərir ki, bu da gənclərimizin ixtisas seçmələri üçün geniş imkanlar açır. Azərbaycandan kənarda təhsil almaq istəyən gənclərimiz üçün də lazımi şərait yaradılması ölkə başçımızın bu gün də diqqətindən kənarda qalmır.

5 oktyabr 1992-ci ildə Naxçıvandan Türkiyəyə ali təhsil almağa göndərilən tələbələrlə görüşündəki çıxışında Heydər Əliyev demişdir: «Bir şeyi bilmək lazımdır ki, əgər hər hansı bir xalq inkişaf etmək istəyirsə, o, gərək bəşəri mədəniyyətə, bəşəri elmə yiyələnsin. Mən 20 il bundan öncə də, indi də çox arzusunda olmuşam ki, azərbaycanlı tələbələr Türkiyədə, İranda, Rusiyada, Almaniyada, Ərəbistanda, İtaliyada, İngiltərədə, Amerikada, Fransada və hətta Çində belə təhsil alsınlar. Çünki öz içimizdə olan biliklər özümüzdədir və bunu heç kəs bizim əlimizdən ala bilməz. Ancaq dünyanın cürbəcür ölkələrindəki təhsil sistemlərindn istifadə edərək, böyük elmi nailiyyətə müvəffəq olaraq xalqı daha da irəliyə aparmaq lazımdır».

Həqiqətən də, 70-ci illərdə Azərbaycanda yüksək təhsilli mütəxəssislər hazırlamaq üçün çox işlər görülmüşdür. Bu tarixi faktdır. 1970-ci ildən başlayaraq Azərbaycanda qeyd etdiyim kimi, 15-16 ali məktəb olmasına baxmayaraq, Möhtərəm Prezidentimiz Heydər Əliyev uzaqgörənliklə yüksək ixtsiaslı mütəxəssislər hazırlamaq üçün Moskvaya, Leninqrada, Ukraynaya, Belarusiyaya və o vaxt-

lar Sovetlər İttifaqının başqa respublikalarının mərkəzi şəhərlərinə azərbaycanlı uşaqlarını göndərib, onların orada müxtəlif ixtisaslara yiyələnmələri üçün şərait yaratmışdır.

Elə bunu qeyd etmək kifayətdir ki, müstəqillik illərində ölkəmizdən kənara yüzdən çox ixtisas üzrə 4000 mindən çox azərbaycanlı gənc göndərilmişdir.

Bir məsələni də qeyd etmək lazımdır ki, Heydər Əliyevin öz təşəbbüsü ilə respublikadan kənarda təhsil almağa göndərilən tələbələrin sayı ilbəil artmaqdadır. Hazırda xaricdəki müxtəlif təhsil ocaqlarında 3000 mindən çox azərbaycanlı gənc təhsil alır.

Heydər Əliyevin 1997-ci ildə respublikamızdan kənarda təhsil almağa gedən gənclərə müraciətlə dediyi: «Azərbaycandan kənara—başqa ölkələrə təhsil almağa gedən gənclərə xüsusi tövsiyə ondan ibarətdir ki, siz hansı ölkədə olursunuzsaolun, birinci vəzifəniz yüksək təhsil almaqdan, o təhsil ocağının imkanlarından istifadə edib hərtərəfli, hazırlıqlı bir vətəndaş olmaqdan ibarətdir. Eyni zamanda siz respublikamızı xarici ölkələrdə təmsil edən insanlar, gənclər olacaqsınız. Siz sadəcə olaraq təhsil almaqdan kifayətlənməməlisiniz. Azərbaycanı ləyaqətlə təmsil etməlisiniz, ölkəmizin həqiqətlərini təhsil alacağınız universitetlərdə, ali təhsil müəssisələrində yaymalısınız, təbliğ etməlisiniz» - sözləri göstərir ki, Möhtərəm Prezidentimiz gənclərimizə böyük etimad göstərərək, onlara hər mənada yaxşı olmağı tövsiyə edir.

Onu da qeyd edim ki, Heydər Əlyievin istənilən sahədəki fəaliyyətinə gənclərin mənafeyi baxımından, gənclik prizmasından yanaşmaq mümkündür. Cəbhədə atəşkəs elan olunur, genefondumuz məhz gənclik tərəfindən hifz olunur, beynəlxalq əlaqələr genişlənir, sabahkı nəsillər üçün dünya ilə anlaşılma problemləri aradan qalxır, demokratiya inkişaf edir, siyasi sistem dəyişir, yeni və sağlam təfəkkürə malik nəsillər formalaşır, iqtisadi islahatlar aparılır, gənclərin sahibkarlıq ehtiyacları ödənilir, sənaye dirçəldilir, yeni texnologiyaya, məşğulluğa tələbat öz yerini alır.

Möhtərəm Prezidentimizin 1999-cu il iyunun 29-da imzaladığı «Dövlət gənclər siyasəti haqqında» fərmanı bu istiqamətdə aparılan işlərin sürətləndirilməsi və genişləndirilməsinə də böyük təkan verir. Və bu da fərəhlidir ki, ötən dövrdə bu fərmana uyğun olaraq, Gənclərin Problemləri Üzrə Elmi Araşdırmalar Mərkəzi, Respublika Uşaq İstirahət və Sağlamlıq Mərkəzinin yaranması, bədən tərbiyəsi və idmanın inkişafı, beynəlxalq sahədə əlaqələrin yaradılması və genişləndirilməsi və s. məsələlər gənclərlə aparılan işin, nəinki ilbəil, hətta deyərdim ki, günbəgün sürətləndirilməsinə parlaq misaldır. Hələ mən müxtəlif sahələr üzrə qəbul edilmiş digər dövlət və hökumət sənədlərini qeyd etmirəm.

Ancaq maraqlı burasıdır ki, məhz Prezidentimizin müdrik, uzaqgörən siyasəti nəticəsində elə bu müxtəlif istiqamətləri birləşdirən və ona nəzarət edən bir qurumun yaradılması və bu qurumun əlaqədar təşkilatlarla birgə fəaliyyəti göstərir ki, həqiqətən də Azərbaycan gəncləri az vaxt ərzində çox böyük uğurlar qazanmaqla yanaşı, hətta öz bayramlarını qeyd etmək imkanı da əldə ediblər. Artıq 1997-ci il fevralın 2-dən başlayaraq respublikamızda «Azərbaycan Gəncləri günü»nün keçirilməsi ənənə halını alıbdır.



Qaçqın və məcburi köçkün gənclərin problemlərinin həll olunmasına kömək göstərilməsi, ölkəmizin gənclər hərəkatının konstruktiv yol tutması üçün dünya təcrübəsindən istifadə edilməsi, Azərbaycanın Avropa Şurasına qəbulunda Avropa Gənclər və İdman Direktorluğunun ölkəmizin gənclər hərəkatına verdiyi müsbət qiymət və s. artıq respublikamızın gənclər hərəkatının sürətli inkişafının bariz nümunəsidir.

Son illər Azərbaycanda bədən tərbiyəsi və idmanın sürətlə inkişaf etməsi, bu sahədə böyük uğurların geniş vüsət alması ölkəmizdə bədən tərbiyəsi və idman hərəkatının diqqətdən kənarda qalmadığını bir daha göstərir və bu da danılmaz faktdır ki, ARDNŞ-nin I vitse prezidenti, MOK – prezidenti, millət vəkili, YAP sədrinin I müavini İlham Əliyevin yorulmaz və səmərəli fəaliyyəti Azərbaycan idmanının tərəqqisinə gətirib çıxarmışdır. Bir qədər də ölkəmizdə son illərdə bədən tərbiyəsi və idman sahəsində qazanılmış uğurlardan söz açmaq istərdim.

İlham Əliyevin idmana göstərdiyi qayğı sayəsində qısa müddətdə yeni-yeni müasir standartlara cavab verən idman saraylarının inşası, gənclərin sağlam ruhda böyüməsinə geniş imkanlar açdı. Az keçmədi ki, idmana verilmiş bu töhfələr öz nəticələrini verdi, gənc Azərbaycan idmançıları olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında və digər mötəbər turnirlərində uğurlar qazanaraq, yüksək mükafatlar əldə edərək, bu illər ərzində Vətənə 1149 medal gətirdilər, dünyanın bir çox ölkələrində Azərbaycanın bayrağını qaldırmağa, himnini səsləndirməyə müvəffəq oldular. Göstərilmiş nəticələrə yüksək qiymət verən Azərbaycan Prezidenti Heydər Əliyev 2002-ci il oktyabrın 18-də Prezident Sarayında olimpiyaçılarla görüşərək, bir neçə idmançımızı orden və medallarla təltif etdi. Onlara, orden və medalları, pul mükafatlarını şəxsən özü təqdim etdi. Görüşdə böyük nitq söyləyən Heydər Əliyev Azərbaycan idmanının yüksəliş yolunda olduğunu bir daha qeyd edərək, idmançıları yüksək nailiyyətlər əldə etmələri münasibəti ilə ürəkdən təbrik etdi.

İdmanımızın bu və ya digər uğurları göstərir ki, Heydər Əliyev ideyalarının davamçısı olan İlham Əliyevin son illərdə gördüyü işlər, arıq onu böyük siyasətdə öz sözü və dəsti-xətti olan bir dövlət xadimi kimi tanıtmışdır. İlham Əliyevin bu günlərdə Avropa Şurası Parlament Assambleyası sədrinin müavini və büro üzvü seçilməsi onun artıq dünya siyasətində inamlı fəaliyyətinə parlaq sübutdur.